# TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ İLE AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ ARASINDA ÇALIŞMA, SOSYAL GÜVENLİK VE İSTİHDAM ALANLARINDA İŞBİRLİĞİ ANLAŞMASI

Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti (bundan böyle "Taraflar" olarak anılacaktır),

İki ülke arasında ilişkilerin gelişmesine yönelik ortak çabaların desteklenmesine çalışarak,

çalışma hayatı, sosyal güvenlik ve istihdam alanlarında işbirliğinin geliştirilmesi ve pekiştirilmesinde karşılıklı niyete dayanarak,

aşağıdaki hususlarda mutabakata varmışlardır:

## Madde 1

Taraflar, ulusal mevzuatına uygun olarak çalışma hayatı, sosyal güvenlik, istihdam, ve işgücü göçü alanlarında işbirliği yapacaklardır.

## Madde 2

Taraflar, aşağıda belirlenen konulara ilişkin mevzuat ve bu mevzuattaki değişiklikler hakkında belge ve bilgi teatisinde bulunacaklar, birbirlerinin deneyimlerinden istifade etmek amacıyla karşılıklı uzman değişimi yapacaklardır.

a) Çalışma hayatı, toplu iş sözleşmeleri, anlaşmazlıkları giderme, çocuk işçiliğinin önlenmesi, işçi işveren ilişkileri, devlet kurumları ile işveren örgütleri ve sendikalar arasındaki ilişkiler ve yabancıların çalışma izinleri,

b) İş sağlığı ve güvenliği,

c) İş teftişi, iş teftişi sisteminde yeni yaklaşımlar, yeni teftiş modelleri ve önleyici teftiş anlayışının yaygınlaştırılması,

d) İstihdam, istihdam politikaları ve iş piyasasındaki gelişmelerin izlenmesi, işgücü piyasası araştırmaları ve analizleri, malul kişilerin mesleki rehabilitasyonu, kamu ve özel istihdam bürolarının faaliyet şekli, işsizler için işe yerleştirme, mesleki eğitim ve mesleğe yöneltme, işsizlik sigortası uygulamaları,

e) Çalışma hayatı, sosyal güvenlik ve istihdam alanlarında faaliyet gösteren uluslararası kuruluşlarla ilişkilerde işbirliği,

f) Ulusal meslek standartlarının belirlenmesi ve ulusal mesleki yeterliliklerin geliştirilmesi,

g) Sosyal güvenlik,

h) Kamu personel yönetimi ve kamu personel yönetiminin iyileştirilmesi,

i) İşgücü göçü,

j) Kayıtdışı istihdamın önlenmesine yönelik işbirliği, kayıtdışı istihdamın önlenmesine yönelik olarak uygulanan strateji, politika, plan ve projelerin karşılıklı paylaşılması.

**Madde 3**

Taraflar, her iki Bakanlığın görev alanına giren konularda ortak projeler hazırlanmasına yönelik görüşmeler (çalışmalar) yapacaklardır.

**Madde 4**

Taraflar, çalışma, iş sağlığı ve güvenliği, sosyal güvenlik, istihdam ve işgücü göçü alanlarında uluslararası, bölgesel ve iki taraflı seminer ve konferanslar düzenleyeceklerdir.

**Madde 5**

Taraflar, bu Anlaşma'nın uygulanmasının izlenmesi ve işbirliğine ilişkin konuların gerçekleştirilmesi için bir Ortak Çalışma Grubu oluşturmaya karar vermişlerdir.

**Madde 6**

Bu Anlaşma'nın hayata geçirilmesine dair faaliyetin ilişkilendirilmesi ile ilgili yetkili merciler aşağıdakilerdir:

Türkiye Cumhuriyeti Hükümeti adına - Çalışma ve Sosyal Güvenlik Bakanlığı.

Azerbaycan Cumhuriyeti Hükümeti adına - Çalışma ve Halkın Sosyal Koruması Bakanlığı.

## Madde 7

Taraflar, bu Anlaşmanın 2. maddesinde belirtilen uzman değişimi ile ilgili olarak bir sonraki yılın faaliyet programının belirlenmesini teminen her yılın Aralık ayının sonuna kadar heyet sayısı ve seyahat programı hakkında birbirlerini bilgilendireceklerdir.

Taraflar arasında belge, bilgi ve uzman değişimi alanında gerçekleştirilecek işbirliğinin uygulamaya geçirilebilmesi için koordinasyon, Türkiye Cumhuriyeti'nden Çalışma ve Sosyal Güvenlik Bakanlığı Dış İlişkiler ve Yurtdışı İşçi Hizmetleri Genel Müdürlüğünce, Azerbaycan Cumhuriyeti'nden de Çalışma Halkın Sosyal Koruması Bakanlığı Uluslararası İlişkiler Şubesi tarafından sağlanacaktır.

## Madde 8

Uzman değişimi çerçevesinde yapılacak ziyaretlerde, heyetlerin iaşe, ibate ve ulaşım masrafları gönderen tarafça üstlenilecektir.

## Madde 9

Taraflar, her iki Bakanlığın müşterek görev alanında yer almayan ancak münferiden görev alanlarına giren, sosyal güvenlik, işgücü göçü, sağlık hizmetlerinin verilmesi, sosyal hizmetler, muhtaç vatandaşlara yapılan sosyal yardımlar, bakıma muhtaç çocuklar ve engellilerin rehabilitasyonu, kamu yönetimi v.b. konularda ülkelerinde faaliyet gösteren diğer ilgili Bakanlık, kurum ve kuruluşlar ile koordinasyonu sağlayacaklardır.

## Madde 10

Bu Anlaşma'nın uygulanması veya yorumu ile ilgili ortaya çıkan anlaşmazlıklar ve görüş ayrılıkları Tarafların yetkili mercileri arasında görüşmeler ve/veya istişareler yoluyla çözüme kavuşturulacaktır.

## Madde 11

Bu Anlaşmaya Tarafların karşılıklı mutabakatıyla, anlaşmanın ayrılmaz bir parçası olan ve 12. Maddede belirtilen usulle yürürlüğe giren ek protokoller şeklinde resmileştirilen ilave ve değişiklikler yapılabilir.

**Madde 12**

Bu Anlaşma, yürürlüğe girmesi için gerekli iç onay prosedürlerinin tamamlandığına dair diplomatik yollarla yapılan sonuncu yazılı bildirimin alındığı tarihte yürürlüğe girer.

Bu Anlaşmanın geçerlilik süresi bir yıldır. Taraflardan biri bu Anlaşmayı fesih etme niyetini Anlaşma süresinin bitimine en az üç (3) ay kala diplomatik yollardan yazılı olarak diğer Tarafa bildirmediği takdirde, Anlaşmanın geçerlilik süresi kendiliğinden birer yıllık sürelerle uzar.

Bu Anlaşmanın feshi, Anlaşmaya istinaden başlatılmış olan veya devam eden projeleri ve faaliyetleri, sonuçlandırılmalarına kadar etkilemez.

Bu Anlaşma'nın yürürlüğe girmesiyle, 5 Mayıs 1997 tarihinde Ankara'da imzalanan "Türkiye Cumhuriyeti Çalışma ve Sosyal Güvenlik Bakanlığı ile Azerbaycan Cumhuriyeti Çalışma ve Halkın Sosyal Güvenlik Bakanlığı Arasında İşbirliği Anlaşması"nın yürürlüğü sona erer.

Türkçe ve Azerbaycan dillerinde ikişer nüsha olarak hazırlanmış olan bu Anlaşma 13 Kasım 2013 tarihinde Ankara'da imzalanmış olup tüm metinler aynı derecede geçerlidir.

| | |
|---|---|
| **Türkiye Cumhuriyeti Hükümeti Adına** | **Azerbaycan Cumhuriyeti Hükümeti Adına** |
| **Faruk ÇELİK**<br>**Çalışma ve Sosyal Güvenlik Bakanı** | **Selim MÜSLİMOV**<br>**Çalışma ve Halkın Sosyal Koruması Bakanı** |

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏMƏK, SOSİAL MÜDAFİƏ VƏ MƏŞĞULLUQ SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIĞA DAIR S A Z İ Ş

Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti (bundan sonra - Tərəflər),

iki ölkə arasında münasibətlərin inkişafına yönəldilmiş birgə səylərin dəstəklənməsinə çalışaraq,

əmək, sosial müdafiə və məşğulluq sahələrində əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsində qarşılıqlı niyyətə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq, əmək, sosial müdafiə, məşğulluq və əmək miqrasiyası sahələrində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Tərəflər aşağıda müəyyən edilən mövzulara dair qanunvericilik və bu qanunvericilikdəki dəyişikliklər haqqında sənəd və məlumat mübadiləsi aparacaq, bir-birlərinin təcrübələrindən istifadə etmək məqsədi ilə qarşılıqlı mütəxəssis mübadiləsi edəcəklər:

a) əmək fəaliyyəti, kollektiv əmək müqavilələri, mübahisələrin aradan qaldırılması, uşaq əməyinin qarşısının alınması, işçi-işəgötürən münasibətləri, dövlət qurumları ilə işəgötürənlər və həmkarlar ittifaqları arasındakı münasibətlər və əcnəbilərin iş icazələri;

b) əməyin mühafizəsi və təhlükəsizliyi;

c) əmək müfəttişliyi, əmək müfəttişliyi sistemində yeni yanaşmalar, yeni təftiş modelləri və qabaqlayıcı təftiş anlayışının yayılması;

d) məşğulluq, məşğulluq siyasəti və əmək bazarındakı proseslərin izlənilməsi, işçi qüvvəsi bazarının tədqiqi və təhlilləri, əlillərin peşə reabilitasiyası, dövlət və özəl məşğulluq bürolarının fəaliyyət qaydası, işsizlərin işlə təmini, peşə təhsili və peşəyə istiqamətləndirmə, işsizlik sığortasının tətbiqi;

e) əmək, sosial müdafiə və məşğulluq sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrdə əməkdaşlıq;

f) milli peşə standartlarının müəyyən edilməsi və milli peşə standartlarının inkişaf etdirilməsi;

g) sosial müdafiə;

h) dövlət kadr idarəetməsi və dövlət kadr idarəetməsinin yaxşılaşdırılması;

i) əmək miqrasiyası;

j) qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində əməkdaşlıq, qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı tətbiq olunan strategiya, siyasət, plan və layihələrin qarşılıqlı mübadiləsi.

**Maddə 3**

Tərəflər hər iki Nazirliyin səlahiyyət sahəsinə aid olan mövzularda ortaq layihələr hazırlanmasına dair görüşlər (çalışmalar) keçirəcəklər.

**Maddə 4**

Tərəflər əmək, əməyin mühafizəsi və təhlükəsizliyi, sosial müdafiə, məşğulluq və əmək miqrasiyası sahələrində beynəlxalq, regional və ikitərəfli seminar və konfranslar təşkil edəcəklər.

**Maddə 5**

Tərəflər bu Sazişin tətbiqinə nəzarət və əməkdaşlığa dair məsələlərin həyata keçirilməsi üçün Birgə İşçi Qrupunun yaradılması qərarına gəldilər.

**Maddə 6**

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə səlahiyyətli orqanlar aşağıdakılardır:

Türkiyə Respublikası Hökuməti adından - Əmək və Sosial Müdafiə Nazirliyi; Azərbaycan Respublikası Hökuməti adından - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

## Maddə 7

Tərəflər, bu Sazişin 2-ci maddəsində qeyd edilən mütəxəssis mübadiləsi ilə bağlı növbəti ilin fəaliyyət proqramının müəyyən edilməsi məqsədilə hər ilin dekabr ayının sonuna qədər nümayəndə heyətlərinin sayı və səfər proqramı haqqında bir-birlərini məlumatlandıracaqlar.

Tərəflər arasında sənəd, məlumat və mütəxəssis mübadiləsi sahəsində qurulacaq əməkdaşlığın gerçəkləşdiriləcəyi üçün koordinasiya Türkiyə Respublikasından isə Əmək və Sosial Müdafiə Nazirliyinin Xarici Əlaqələr və Xaricdəki İşçi Xidmətləri Baş İdarəsi, Azərbaycan Respublikasından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçiriləcəkdir.

## Maddə 8

Mütəxəssis mübadiləsi çərçivəsində ediləcək səfərlərdə heyətlərin qalmaq, yemək və nəqliyyat xərcləri göndərən tərəfin hesabına ödəniləcəkdir.

## Maddə 9

Tərəflər hər iki Nazirliyin müştərək səlahiyyət sahələrinə aid olmayan, lakin ayrılıqda səlahiyyət sahələrinə aid olan sosial müdafiə, əmək miqrasiyası, səhiyyə xidmətlərinin göstərilməsi, sosial xidmətlər, ehtiyacı olan vətəndaşlara göstərilən sosial yardımlar, qayğıya ehtiyacı olan uşaqlar və əlillərin reabilitasiyası, dövlət idarəçiliyi və s. mövzularda ölkələrində fəaliyyət göstərən digər əlaqədar nazirlik, qurum və təşkilatlar ilə koordinasiyanı təmin edəcəklər.

## Maddə 10

Bu Sazişin həyata keçirilməsi və ya təfsiri ilə əlaqədar yaranan mübahisələr və fikir ayrılıqları Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar və (və ya) məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

## Maddə 11

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 12-ci maddəsində müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

## Maddə 12

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 1 (bir) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı (3) üç ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 1 (bir) illik müddətlərə uzadılacaqdır.

Bu Sazişin ləğvi ona əsasən başlanılmış və davam edən layihələrə və fəaliyyətə onlar başa çatanadək təsir etməyəcəkdir.

Bu Sazişin qüvvəyə minməsi ilə 1997-ci il 5 may tarixində Ankarada imzalanmış "Türkiyə Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" qüvvədən düşmüş hesab olunur.

Bu Saziş Ankara şəhərində 13 noyabr 2013-cü il tarixində, hər biri türk və Azərbaycan dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

| Türkiyə Respublikası<br>Hökuməti adından | Azərbaycan Respublikası<br>Hökuməti adından |
|---|---|
| **Faruk ÇƏLİK**<br>**Əmək və Sosial**<br>**Müdafiə Naziri** | **Səlim MÜSLİMOV**<br>**Əmək və Əhalinin Sosial**<br>**Müdafiəsi Naziri** |